# «Müstəqilliyimiz əbədidir, dönməzdir, daimidir».

*Heydər ƏLİYEV.*

# Təntənəli bayram tədbiri

***«Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilirik, uğurla yaşaya bilirik. Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir».***

*İlham ƏLİYEV.*



Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümü münasibətilə Qəbələ Mədəniyyət Mərkəzində ümumrayon tədbiri keçirilmişdir. Tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri—başçının müavini Ətayə Osmanova açmış, müstəqilliyimizin 25 illiyi ilə əlaqədar məruzə etmişdir. Natiq bildirimişdir ki, Azərbaycan Respublikasının Ali Soveti «Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı»nı 1991-ci ilin oktyabrın 18-də qəbul etmişdir. Müstəqilliyimizin ilk illəri çox qanlı-qadalı keçmişdir. Ancaq ümumilli liderimiz Heydər Əliyevin 1993-cü ilin iyun ayında hakimiyyətə gəlişindən sonra ölkəmiz əsil müstəqilliyinə qovuşdu. Dahi rəhbərin 1993-cü ildən 2003-cü ilədək apardığı məqsədyönlü, uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycanın müstəqilliyi əbədi, dönməz və sarsılmaz oldu.

Ulu öndərin layiqli varisi möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən dahi rəhbərin siyasətinin uğurla, yaradıcılıqla, ardıcıl davam etdirilməsi sayəsində Azərbaycan bu gün beynəlxalq aləmdə nüfuz qazanmış, güclü dövlətə çevrilmişdir.

Bayram tədbirinin bədii hissəsi ulu öndərin vaxtilə səsləndirdiyi Səməd Vurğunun "Azərbaycan" şeirindən bir bəndinin səs yazısı ilə başladı. Qəlbləri riqqətə gətirən "Koroğlu" operasının uverturası səsləndi. Bayram tədbiri rəngarəng musiqi nömrələri ilə davam etdi.

**Vüsal SƏMƏDOV.**
**İlkin Vəlizadə.**



*Qəbələ Rayon İcra Hakimiyyəti başçısının 17 oktyabr 2016-cı il tarixli 88 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.*

## Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə bağlı Qəbələ rayonunda keçiriləcək təbdirlərin planı

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1 | Qəbələ rayonunun qəsəbə və kəndlərində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünə həsr olunmuş kütləvi tədbirlərin və təntənəli yubiley şənliklərinin təşkil edilməsi. | Qəbələ Rayon İcra Hakimiyyəti, Qəbələ Rayon İcra Hakimiyyətinin inzibati ərazi nümayəndəlikləri. | Ətayə Osmanova, Zülfüqar Cəfərov, inzibati ərazi nümayəndələri. | Oktyabr-noyabr 2016-cı il. |
| 2 | Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə əlaqədar müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsi. | Qəbələ Rayon İcra Hakimiyyəti, Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsi. | Ətayə Osmanova, Nargilə Qafarova. | Oktyabr-dekabr 2016-cı il. |
| 3 | Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünə həsr olunmuş müxtəlif idman yarışlarının keçirilməsi. | Qəbələ Rayon İcra Hakimiyyəti, Qəbələ Rayon Gənclər və İdman İdarəsi. | Ətayə Osmanova, Fəxri Soltanov. | Oktyabr-dekabr 2016-cı il. |
| 4 | Qəbələ rayonunun müxtəlif idarə, müəssisə və təşkilatları tərəfindən Azərbaycan dövlətinin ayrı-ayrı sahələrdə son 25 ildə qazandığı uğurlara həsr olunmuş dəyirmi masaların təşkil edilməsi. | Qəbələ Rayon İcra Hakimiyyəti, Qəbələ rayonunun idarə, müəssisə və təşkilatları. | Arif Allahverdiyev, Ətayə Osmanova, Məmməd İsmayılov. | Oktyabr-noyabr 2016-cı il. |
| 5 | Qəbələ rayonunun ümumtəhsil müəssisələrinin şagirdləri arasında müstəqil Azərbaycana həsr olunmuş müxtəlif müsabiqələrin keçirilməsi. | Qəbələ Rayon İcra Hakimiyyəti, Qəbələ Rayon Təhsil Şöbəsi. | Ətayə Osmanova, Oqtay Hacıyev. | Oktyabr-dekabr 2016-cı il. |
| 6 | Uşaq, yeniyetmə və gənclər arasında ümumrayon rəsm, musiqi və idman müsabiqələrinin keçirilməsi. | Qəbələ Rayon İcra Hakimiyyəti, Qəbələ Rayon Təhsil Şöbəsi, Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsi, Qəbələ Rayon Gənclər və İdman İdarəsi. | Ətayə Osmanova, Oqtay Hacıyev, Nargilə Qafarova, Fəxri Soltanov. | Oktyabr-dekabr 2016-cı il. |
| 7 | Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində Azərbaycan Respublikasının müstəqillik illərində qazandığı uğurları əks etdirən guşə və sərgilərin yaradılması. | Qəbələ Rayon İcra Hakimiyyəti, Qəbələ Rayon Tarix Diyarşünaslıq Muzeyi. | Ətayə Osmanova, Nargilə Qafarova, Xalis Məmmədov. | Oktyabr-dekabr 2016-cı il. |
| 8 | "Qəbələ" qəzetində və Qəbələ Rayon İcra Hakimiyyətinin rəsmi internet saytında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünə həsr olunmuş xüsusi materialların verilməsi. | Qəbələ Rayon İcra Hakimiyyəti, "Qəbələ" qəzeti. | Ətayə Osmanova, Zahir Kərimov, Varis Yaqubov. | Oktyabr-dekabr 2016-cı il. |

# 9 noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdur

(Əvvəli 1-ci səhifədə).

Ümummilli liderin bizə ərməğan qoyduğu müasir, müstəqil Azərbaycanda onun siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin milli ideallara bağlılığı həm də üçrəngli bayrağımıza münasibətdə açıq-aydın görünür. "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə"yə edilmiş əlavə və dəyişikliklərin təsdiqlənməsi, "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Qanunun imzalanması da bu yüksək ehtiramın ifadəsidir.

Prezident İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı digər bir Sərəncamla Azərbaycanın üçrəngli bayrağının ilk dəfə rəsmi ucaldığı 9 noyabr (1918-ci il) tarixi «Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü» kimi təsis edilmişdir. 2010-cu ildən etibarən noyabrın 9-u hər il respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılışı Prezident İlham Əliyevin bir daha dövlət rəmzlərimizə verdiyi dəyərin bariz nümunəsidir. Dünyanın ən uca bayrağı Bakıda Dövlət Bayrağı Meydanında dalğalanan Azərbaycan bayrağıdır. Dövlət Bayrağı Meydanının təməli 2007-ci il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində qoyulmuşdur.

İnşa olunmuş dayağın hündürlüyü 162, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri 1,09 metrdir. Qurğunun ümumi kütləsi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, kütləsi isə təqribən 350 kiloqramdır.

Dövlət Bayrağı Meydanının açılışı və Dövlət bayrağının təntənəli qaldırılması 2010-cu ilin sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilmişdir.

Dövlətimizin başçısının həmin mərasimdə səslənən tarixi nitqində deyilir: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət bayrağımız yenə də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır".

**Qüdrət SƏMƏDOV.**
***«Qəbələ».***